

# Zəfər strategiyası

**Mahiyyətindən asılı olmayaraq, hər bir tarixi hadisənin əsl dəyərini verməyə qadir olan ən ədalətli hakim zamandır. Bu baxımdan 2018-ci il 11 apreldə keçirilmiş növbədənkənar prezident seçkiləri Azərbaycan xalqının həyatında taleyüklü hadisə kimi fövqəladə tarixi və siyasi əhəmiyyətə malikdir. Tarixi Zəfərin zəmini, ərazi bütövlüyümüzün təmin olunmasının yol xəritəsinin start nöqtəsi kimi qiymətləndirilən bu seçkilərin zəruriliyi bir sıra mühüm amillərlə bağlı olmuşdur.**

Əvvəlcə onu qeyd edək ki, hüquqi baxımdan 2016-cı ildə Konstitusiyaya dəyişikliklərlə bağlı keçirilən referendumda çox vacib bir məsələ həllini tapmışdı. Konstitusiyanın 101-ci maddəsinə dəyişiklik edilərək, dövlət başçısının səlahiyyət müddəti 5 ildən 7 ilə qədər uzadılmış və Azərbaycan Prezidentinə seçicilərə etimad votumu üçün müraciət imkanı – növbədənkənar prezident seçkilərini elan etmək səlahiyyəti verilmişdi.

Növbədənkənar prezident seçkilərinin keçirilməsini zəruri edən əsas amil Azərbaycanın Ermənistan tərəfindən 25 ildən artıq bir müddətdə davam edən işğalına tezliklə son qoymaq məqsədinə bağlı idi ki, bunun üçün də dövlətin resurslarının səmərəli şəkildə təmərküzləşməsinə ehtiyac duyulurdu. Ölkə daxilində həm konseptual, həm də struktur xarakterli islahatları sürətləndirərək, çevik idarəetmənin qurulması da məhz bu hədəflər sırasında idi. Eyni zamanda, lazımi nəticəyə nail olmaq üçün xalq–iqtidar birliyinin əhəmiyyətini heç bir halda nəzərə almamaq mümkün deyil. Bu baxımdan seçkiləri xalqın hakimiyyətə etimad səviyyəsinin ölçülməsi üçün bir sınaq kimi də dəyərləndirmək lazımdır. Digər tərəfdən, müxtəlif dövlətlər arasında münasibətlərin gərginləşməsi və proqnozlaşdırılması çətin olan mürəkkəb beynəlxalq şərait dövlət idarəetməsində ləngimədən müvafiq addımların atılmasını tələb edirdi. Regional və qlobal miqyasda bir-birini əvəzləyən geosiyasi proseslər və tendensiyalar fonunda keçirilən demokratik seçkilər həm də Azərbaycanın beynəlxalq mövqelərinin möhkəmləndirilməsi kimi vacib hədəfə yönəlmişdi.

Xüsusilə, "Dağlıq Qarabağ" münaqişəsinin həll edilməsi ilə ərazi bütövlüyümüzün təmin olunması kimi ağır problem öz həllini gözləyirdi. Çünki 25 ildən artıq müddətdə BMT Təhlükəsizlik Şurasının məlum 4 qətnaməsinin yerinə yetirilməməsi, ATƏT-in Minsk qrupunun tam fəaliyyətsizliyi və bu məsələdə bir sıra beynəlxalq təşkilatların Ermənistanın xeyrinə ikili standartlar tətbiq etməsi işğal faktorunun aradan qaldırılmasının hərb variantını gündəmə gəlməsi üçün obyektiv əsaslar formalaşdırmışdı. Digər tərəfdən, əvvəlki tarixi dövrlərdə olduğu kimi, guya, məsələnin həllinin mümkünsüzlüyü baxımından reallıqla barışaraq, Ermənistana güzəştə getmək, zaman faktoru üzərindən azərbaycanlıların yetişməkdə olan gənc nəslinə bu problemi unutdurmaq taktikasının qarşısı alınmalı idi. Bu tarixi vəzifəni yerinə yetirmək üçün isə ilk növbədə, dövlətin idarəetmə sisteminin daha çevik və mütəhərrik şəkildə, möhkəm dayaqlar üzərində qurulması vacib idi.

2018-ci il növbədənkənar prezident seçkilərində YAP-ın namizədi, partiyanın sədri cənab İlham Əliyev 86 faizdən çox səslə yenidən növbəti 7 il üçün xalqın böyük etimadını qazandı. Qeyd edək ki, tam demokratik və şəffaf şəraitdə keçirilən seçkiləri 60-dan çox təşkilat, 60-a yaxın ölkədən 900-dək beynəlxalq müşahidəçi izləmişdir.Yerli müşahidəçilərin sayı isə 58 mindən çox idi. Təbiidir ki, qərəzli münasibətdən doğan bəzi mənfi rəylər, bütövlükdə, seçkinin obyektiv və ədalətli nəticələrinə təsir göstərə bilməzdi və bu baxımdan sonda hər kəsin bu reallığı qəbul etməsi məntiqli və qanunauyğundur.

Burada xüsusi olaraq qeyd etmək istərdim ki, cənab İlham Əliyevin növbəti müddətə dövlət başçısı seçilməsində mühüm rol oynayan məqamlardan biri onun əvvəlki seçki kampaniyaları zamanı Azərbaycan xalqına verdiyi bütün vədlərin yerinə yetirməsi idi. "Nəyi nə zaman və necə etməyin" məsuliyyətini hər kəsdən yaxşı dərk edən, bunu öz əməli ilə sübut edən və nəticələr barədə xalq qarşısında hesabat verən dövlətimizin başçısı inauqurasiya mərasimindəki proqram xarakterli nitqində göstərdi ki, o, növbəti mərhələdə də yerinə yetirilməli olan milli vəzifələr haqqında geniş təsəvvürə və aydın viziona malikdir: "… Növbəti illərdə görüləcək işlər haqqında bizim çox aydın təsəvvürümüz, planlarımız, proqramlarımız var… Güclü siyasi iradə, böyük maliyyə resurslarımız var… Xalq-iqtidar birliyi var. Ona görə mən əminəm ki, bütün Azərbaycan xalqı və biz hamımız gələcəyə çox böyük nikbinliklə baxırıq. Hamımızın amalı ondan ibarətdir ki, ölkəmiz daha da güclənsin, daha da qüdrətli dövlətə çevrilsin, Azərbaycan vətəndaşları daha da yaxşı yaşasınlar…"

Seçkilərdən dərhal sonra ölkədə islahatların keyfiyyətcə yeni mərhələsinə start verildi, yeni dövlət proqramları işlənib hazırlandı. Bugünədək davam edən islahatlar dövlət quruculuğundan tutmuş sosial-iqtisadi sahəyədək ölkə həyatının bütün spektrlərini və inkişaf istiqamətlərini əhatə edir, müasir və çevik idarəetmə ilə bağlı qərarlar reallaşdırılır. Müsbət dəyişikliklər, ilk növbədə, özünü yeni hökumətin formalaşdırılması, mütərəqqi və səmərəli iş üslubunun tətbiqi, idarəçilik sahəsində təcrübəli şəxslərin və peşəkar insanların müxtəlif məsul siyasi vəzifələrə təyin olunması ilə davam etmişdir. Qanunçuluğun möhkəmləndirilməsi istiqamətində mühüm addımlar atılmışdır. Məhkəmə-hüquq islahatlarının dərinləşdirilməsini hədəfləyən 2019-cu il 3 aprel tarixli Prezident fərmanı, eyni zamanda, mahiyyətcə yeni şəraitdə, bütövlükdə, ölkə üzrə həyata keçirilən islahatlar kursuna dəstək məqsədi daşıyır.

Bu islahatlar hakimiyyətin qanunvericilik qolundan da yan keçməyib. Yeni Azərbaycan Partiyasının təşəbbüsü əsasında 2020-ci il fevralın 9-da keçirilmiş növbədənkənar parlament seçkiləri, bütövlükdə, ölkə üzrə həyata keçirilən islahatların məntiqi davamı və tərkib hissəsi kimi dəyərləndirilir. VI çağırış Milli Məclisin ilk iclasında çıxış edən Prezident İlham Əliyev növbədənkənar parlament seçkilərinin nəticələrinə yüksək qiymət verməklə yanaşı, həm də yeni seçilmiş deputatlara öz tövsiyələrini çatdırmışdır: "Yeni qəbul ediləcək qanunların əsas mahiyyəti islahatları dərinləşdirməkdir. Ona görə qeyd etdiyim kimi, siyasi sistemin formalaşdırılması və gücləndirilməsi üçün qanunvericilik təşəbbüsləri, əlbəttə ki, lazım olacaq, iqtisadi islahatlarımızın dərinləşməsi işinə töhfə verən qanunlar qəbul edilməlidir..." Məhz bu seçkilərdən sonra ölkədə yeni siyasi konfiqurasiya təşəkkül tapmış və keyfiyyətcə yeni tərkibdə formalaşmış Milli Məclis siyasi plüralizm prinsipləri gözlənilməklə milli maraqlar üzərindən siyasi həmrəylik və birlik platforması kimi daha səmərəli fəaliyyət göstərməkdədir.

Milli qanunvericiliyimizin daha mükəmməl əsaslar üzərində qurulması üçün bütün səylər səfərbər olunmuşdur. Qeyd etməliyəm ki, bütün bu illər ərzində Yeni Azərbaycan Partiyasının çoxluq təşkil etdiyi Azərbaycan parlamenti daim cənab Prezidentin həyata keçirdiyi islahatlara qanunvericilik dəstəyi verib. Bu, qanunların qəbulunda daim özünü göstərib. Eyni zamanda, parlamentdə təmsil olunan bitərəf və müxalifət nümayəndələri olan deputatlar da əsas etibarilə dövlət başçısının siyasətini dəstəkləmişlər.

Prezident İlham Əliyevin həyata keçirdiyi bu islahatlar öz mahiyyətinə görə postsovet və Şərqi Avropa ölkələrini qabaqlayır. Faktiki olaraq qarşıya qoyulan məqsəd Azərbaycanı dünyanın ən müasir ölkələri sırasına çıxarmaqdır. Bu müasirlik həm idarəetmədə, həm korrupsiyaya qarşı mübarizədə, həm vətəndaş-məmur münasibətində, həm iqtisadiyyatın yeni müasir qaydalarla idarə olunmasında və həm də ölkənin sosial rifahında, əhaliyə göstərilən qayğıda özünü göstərir.

Nəticə etibarı ilə deyə bilərik ki, İlham Əliyevin rəhbərliyi ilə geridə qoyduğumuz 5 il ərzində Azərbaycan öz tarxinin ən şanlı dövrünü yaşamışdır. Bu illər ərzində ölkəmiz sürətli inkişaf və intibah dövrünə qədəm qoymuşdur. 2015-ci ildən vüsət almış qlobal iqtisadi böhrandan minimum zərərlə çıxan, dünyada baş verən siyasi kataklizmlərin təsirini neytrallaşdırmağa və hətta, bu vəziyyətlərdən bəhrələnməyə nail olan Azərbaycan növbəti mərhələdə çevik siyasi və diplomatik gedişlərlə Avropanın enerji təhlükəsizliyinə mühüm töhfə verən nüfuzlu beynəlxalq aktora çevrilmişdir. İlham Əliyev bu illər ərzində yorulmadan çalışıb, bütün beynəlxalq tribunalardan milli maraqlarımızı müdafiə edib. Bizim səsimiz BMT, AŞ, ATƏT, NATO və bütün digər nüfuzlu beynəlxalq təşkilatların yüksək tribunalarından gəlir, qlobal güclər Azərbaycan liderinin mövqeyi ilə hesablaşırlar. Regionda İlham Əliyevin imzası olmadan heç bir layihə həyata keçirilə bilməz.

Ona görə də təsadüfi deyil ki, Prezident İlham Əliyevin xarici siyasət strategiyası dünya ictimaiyyəti tərəfindən təqdir olunan nümunə kimi səciyyələndirilir. Çünki Azərbaycanın beynəlxalq səviyyədə qurduğu bütün əlaqələr bərabərhüquqlu tərəfdaşlıq, qarşılıqlı maraqların təmin olunması prinsiplərinə söykənir. Bu illər ərzində qardaş Türkiyə ilə qarşılıqlı münasibətlərimiz pik nöqtəyə qalxdı, Türk Dövlətləri Təşkilatındakı səmərəli fəaliyyət bu çərçivədə ölkəmiz üçün yeni imkanlar yaratdı. BMT Təhlükəsizlik Şurasının 5 üzvündən biri olan nəhəng Rusiya ilə müttəfiqlik məsələlərinə dair Bəyanat Azərbaycanın Avrasiya məkanına daha geniş inteqrasiyası üçün üfüqlər açmaqla yanaşı, ölkəmizi mümkün təhlükələrdən sığortalamış oldu.

Təsadüfi deyil ki, bu gün Avropa İttifaqı və ABŞ Azərbaycanı özlərinin strateji tərəfdaşı kimi qəbul edirlər. Azərbaycanın dünyanın ikinci ən böyük beynəlxalq təşkilatı olan Qoşulmama Hərəkatına sədrliyi dövründə Prezident İlham Əliyevin davamlı səyləri və təşəbbüskarlığı sayəsində ölkəmiz dünya çapında liderlər sırasına çıxmış və inamla öz mövqeyini daha da möhkəmləndirməkdə davam edir. Bu gün bir çox yüksək nüfuzlu beynəlxalq tədbirlərə evsahibliyi edən paytaxt Bakı dünya ölkələrinin nəzərlərinin məhz Azərbaycanda fokuslandığı platformaya çevrilib.

Qürurvericidir ki, Cənubi Qafqazın ən güclü dövləti olan Azərbaycan multikultural dəyərlər üzərindən Şərqlə Qərbin ən üstün keyfiyyətlərini özündə birləşdirən yeni nəsil müstəqil dövlət modelinin daha mükəmməl əsaslarını formalaşdırmışdır. Eyni zamanda, ulu öndər Heydər Əliyev ideologiyasının tərkib hissəsi olan azərbaycançılıq məfkurəsi yeni çağırışlar fonunda daha səmərəli şəkildə inkişaf etmiş, dövlət səviyyəsində Azərbaycan diasporunun bütün coğrafiyasını əhatə edən genişmiqyaslı fəaliyyət formalaşmışdır.

Mübaliğəsizdir ki, bu dövrün ən parlaq səhifəsi 44 günlük Vətən müharibəsində xalqın etimadına və ordunun gücünə arxalanan Prezident İlham Əliyevin Ali Baş Komandan kimi Qarabağı işğaldan azad etməsidir. Hər fürsətdə "Azərbaycan xalqı bu işğalla heç vaxt barışmayacaq… biz öz torpaqlarımızı azad edəcəyik. Buna nail olmaq üçün daha da güclü olmalıyıq və olacağıq…", deyə dünyaya ismarıc verən dövlətimizin başçısı Vətən torpaqlarını işğaldan azad etmək üçün bütün mümkün siyasi, hərbi, diplomatik və ideoloji fəaliyyətin dəqiq konturlarını cızmağı bacardı və sonda ulu öndər Heydər Əliyevin ən böyük vəsiyyətinə əməl etdi. Beləliklə, 2019-cu il oktyabrın 3-də "Valday" Beynəlxalq Diskussiya Klubunun plenar sessiyasında Azərbaycan Prezidenti cənab İlham Əliyevin dilindən böyük əminlik və qətiyyətlə səslənmiş "Qarabağ Azərbaycandır!" ifadəsinin tarixi və siyasi məzmunu "dəmir yumruğ"un əyilməz qüdrəti sayəsində öz haqqına qovuşdu.

Sonrakı mərhələdə əldə edilmiş hərbi nailiyyətlərin siyasi-diplomatik uğura çevirmək yönündə mühüm addımlar atılmışdır. Bu baxımdan "biz həmişə real nəticələri hədəf seçirik"– söyləyən cənab İlham Əliyevin Qarabağın azadlığı uğrunda göstərdiyi qətiyyət xalqımızın qürur mənbəyinə çevrilib və bu, müasir təqvimə qızıl hərflərlə həkk olunub.

Bütövlükdə isə alınan nəticələr öz növbəsində ölkəmizin davamlı uğurlarını və artan beynəlxalq nüfuzunu həzm edə bilməyən bəzi xarici qüvvələrə və onların daxildəki havadarlarına – radikal müxalifətə tarixin tutarlı cavabıdır. 2021-ci il martın 5-də YAP-nın VII qurultayındakı nitqində ümummilli məsələlərdə heç bir fərqli fikrə yer olmadığını dilə gətirən cənab İlham Əliyev cəmiyyətin sarsılmaz həmrəylik ideyası ətrafında birləşməsini qarşıya qoyulan məsələlərin həlli üçün vacib şərt kimi dəyərləndirmişdir: "Ümumi məsələlər Qarabağ məsələsidir. Ümumi məsələlər siyasi partiyaların fəaliyyətidir, demokratiyanın inkişafıdır, iqtisadi azadlıqların bərqərar olmasıdır, ölkəmizin güclənməsidir. Bu gün bu siyasi dialoq aparılır. Mən bunu çox təqdir edirəm. Hesab edirəm ki, ölkəmizin gələcək siyasi sisteminin təkmilləşməsi üçün bunun böyük əhəmiyyəti var… bizim ölkə daxilində heç bir siyasi qurumla heç bir problemimiz yoxdur. Antimilli ünsürlərlə, əlbəttə ki, biz heç vaxt bir masa arxasında otura bilmərik, çünki onlar satqınlardır, xaindirlər".

Postmüharibə dövrü nəinki ölkə daxilində və Cənubi Qafqaz regionunda, hətta, bütövlükdə beynəlxalq miqyasda Qələbənin doğurduğu yeni reallıqlarla səciyyələnir. Qarabağ torpağının dirçəldilməsi istiqamətində nəhəng layihələr – beynəlxalq hava limanlarının tikilməsi, "ağıllı kənd"lərin salınması, müasir infrastrukturun formalaşması və s. həyata keçirilir. Artıq Ali Baş Komandanın rəhbərliyi altında düşməndən təmizlənən ərazilərə, o cümlədən Şərqi Zəngəzura "Böyük qayıdış" başlayıb. Növbəti hədəflərimiz isə daha uzaqlara istiqamətlidir.

Azərbaycan bölgədə sülhün və sabitliyin bərqərar olması üçün bütün mümkün vasitələrdən istifadə edir. Son illər baş verən hadisələrin gedişindən belə qənaətə gəlmək olar ki, ölkə Prezidenti cənab İlham Əliyevin ardıcıl səyləri, Ermənistanla münasibətlərin məhz Azərbaycan tərəfinin təqdim etdiyi təkliflər əsasında tənzimlənməsi istiqamətində diplomatik uğurlarımız və getdikcə daha da qüdrətlənən ordumuzun imkanları bu problemin tezliklə aradan qalxması üçün kifayət edəcək.

Beləliklə, 2003-cü ildə ilk dəfə prezident seçildikdən sonra özünü xalqın birinci xidmətçisi elan edən, ötən 20 il ərzində sözlə əməlin vəhdət nümunəsini yorulmaz fəaliyyəti ilə sübuta yetirən cənab İlham Əliyev Azərbaycan tarixinin son 200 illik kəsimində ən möhtəşəm nailiyyətlərə imza atmış, ulu öndər Heydər Əliyevin yarımçıq qalmış ideyalarını uğurla başa çatdırmışdır. Bu gün bu proses daha mükəmməl şəkildə, müasir çağırışlar fonunda, yeni keyfiyyətdə davam etdirilməkdədir.

Tam məntiqlidir ki, Azərbaycanda mərhələli şəkildə həyata keçirilən bu siyasi kursun uğuru böyük strategiyanın tərkib hissəsi olan ağıllı taktiki gedişlərlə şərtlənir. Bu baxımdan zamanla da təsdiq olundu ki, növbədənkənar prezident seçkiləri ilə Qarabağ Zəfəri arasında inkaredilməz üzvi bir bağlılıq mövcuddur. Bu seçkilərin keçirilməsi ilə bağlı qərarın və sonraki siyasi addımların özünü tam şəkildə doğrultmasından doğan əsas məntiq isə ondan ibarətdir ki, 2018-ci il aprelin 11-də cənab İlham Əliyevə səs verməklə xalq ulu öndər Heydər Əliyev ideologiyasına sadiq olduğunu bir daha nümayiş etdirmişdir.

***Əli HÜSEYNLİ,***
***Milli Məclis Sədrinin birinci müavini, Hüquq siyasəti və dövlət quruculuğu komitəsinin sədri***